Noyabrın 1-də Əl-Fərabi adına Qazax Milli Universitetində dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "QS" Beynəlxalq Reytinq Agentliyinin təşkilatçılığı ilə "QS Ali Təhsil Pre-sammiti: Asiya Sakit Okean 2024" keçirilib.

Pre-sammitin açılış panelində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova Azərbaycan elm və ali təhsili barədə təqdimatla çıxış edib. Paneldə, həmçinin Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında cari əlaqələr müzakirə olunub və mümkün gələcək əməkdaşlıq perspektivləri vurğulanıb.

Qeyd edək ki, Azərbaycanın 8 aparıcı ali təhsil müəssisəsinin nümayəndə heyəti ilə təmsil olunduğu pre-sammitin rəsmi açılış hissəsində Qazaxıstan Prezidentinin müşaviri, Qazaxıstanın elm və ali təhsil naziri, "QS" Beynəlxalq Reytinq Agentliyinin rəhbərliyi iştirak edib.